**Vergilər Nazirliyi beynəlxalq sərgidə**

12-14 aprel tarixlərində «Bakı Ekspo» mərkəzində Böyük Britaniyanın «ITE Group» şirkəti və onun Azərbaycandakı tərəfdaşı «Iteca Caspian LLC» şirkəti tərəfindən təşkil olunan 11-ci Azərbaycan beynəlxalq «Turizm və Səyahətlər» (AİTF-2012) sərgisi keçirilmişdir.

«Bütün dünya. Bir sərgi» şüarı altında keçən bu sərgidə dünyanın 32 ölkəsindən 201 şirkət və təşkilat turizmin 62 istiqamətini təqdim ediblər. Ümumilikdə bu il sərgi Azərbaycan, Bolqarıstan, Gürcüstan, Dağıstan Respublikası, Hindistan, Kipr, Krım, Litva, Malayziya, Sloveniya, Türkiyə, Çexiya, Dubay Əmirliyi, Stavropol diyarı və Xorvatiyadan 15 milli və regional ekspozisiyanı qəbul edib.

Sərgidə iştirak etmiş Vergilər Nazirliyi öz pavilyonu ilə tədbir iştirakçılarının, xüsusilə xarici və yerli sahibkarların böyük diqqətinə səbəb olmuşdur. Tədbir keçirilən müddətdə nazirliyin Vergi ödəyicilərinə xidmət idarəsinin əməkdaşları tərəfindən sərgi iştirakçılarını maraqlandıran suallara cavab vermiş, çoxlu sayda məlumatlandırıcı, maarifləndirici materiallar və nəşrlər paylanmışdır.